

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 172 (20.826)

14 sentyabr 2013-cü il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 13-də Xalq artisti, Milli Elmlər Akademiyasının müxbir üzvü, professor Arif Məlikova Azərbaycan mədəniyyətinin inkişafında müstəsna xidmətlərinə görə Heydər Əliyev ordeni təqdim etmişdir.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 13-də Bakının Xətai rayonundakı 249 və 138 nömrəli orta məktəb binalarının əsaslı təmir və yenidənqurmadan sonrakı vəziyyəti ilə tanış olmuşdur.

Prezident İlham Əliyev əvvəlcə 249 nömrəli orta məktəb binasının əsaslı təmir və yenidənqurmadan sonrakı vəziyyəti ilə tanış oldu.

Görülən işlərlə bağlı dövlətimizin başçısına məlumat verildi. Bildirildi ki, 1972-ci ildə inşa olunan məktəbin binası iki korpusdan ibarətdir. Məktəbdə Azərbaycan bölməsi ilə yanaşı, rus bölməsi də fəaliyyət göstərir. Məktəb binasının sahəsi 2252 kvadratmetr, məktəbin ümumi ərazisi isə 19 min 272 kvadratmetrdir. Yeni dərs ili ərəfəsində məktəbin binası əsaslı şəkildə təmir edilmiş, sinif otaqları, fənn kabinetləri yenidən qurularaq müasir avadanlıqla təchiz olunmuşdur. Məktəbin ətraf ərazisində də abadlıq və quruculuq işləri həyata keçirilmişdir.

Sonra Prezident İlham Əliyev 138 nömrəli məktəbə gəldi. Bu məktəbdə görülən işlərlə bağlı da dövlətimizin başçısına məlumat verildi. Bildirildi ki, iki korpusdan ibarət 138 nömrəli orta məktəbin binası 1977-ci ildə inşa olunmuşdur. Məktəbin bütün sinif otaqlarında, fənn kabinetlərində təmir və yenidənqurma işləri yüksək standartlara uyğun şəkildə həyata keçirilmişdir. Bu təhsil ocağının ərazisində abadlıq və quruculuq işləri aparılmış, yaşıllıqlar salınmışdır.

# Demokratik seçki keçirməyə qadir olduğumuzu bir daha təsdiqləyəcəyik

### *1 saylı Şərur-Sədərək Seçki Dairəsində prezident seçkilərinə hazırlığın yüksək səviyyədə təşkili belə deməyə əsas verir*

***Prezident seçkilərinə hazırlıqla əlaqədar görülmüş işlərlə yaxından tanış olmaq üçün 1 saylı Şərur-Sədərək Seçki Dairəsi dairə seçki komissiyasının sədri Niyaz Əsgərovla əlaqə yaratdıq. Bəri başdan qeyd edək ki, Şərur şəhərində 1 saylı Şərur-Sədərək Seçki Dairəsi üçün müasir tələblərə cavab verən bütün ləvazimatlarla təchiz olunmuş yeni bina tikilmişdir.***

Niyaz Əsgərov görülən işlər barədə məlumat verərək bildirdi ki, 1 saylı Şərur-Sədərək Seçki Dairəsində 36 min 886 nəfər seçici səsvermədə iştirak edəcək. Bunun 26 min 901 nəfəri Şərur, 9 min 985 nəfəri isə Sədərək rayonunun payına düşür. Dairənin 33 seçki məntəqəsi var. Onlardan 7-si Sədərəkdə, 26-sı isə Şərurda fəaliyyət göstərir. Səsvermədə ilk dəfə iştirak edəcək 839 gənc seçici siyahıya alınmışdır. Beş seçicinin 100-dən yuxarı yaşı var.

2013-cü ilin əvvəllərindən dairə seçki komissiyasının 13 iclası keçirilmiş və müzakirəyə 13 məsələ çıxarılaraq müvafiq qərarlar qəbul edilmişdir.

Niyaz Əsgərov onu da bildirdi ki, bütün məntəqələrdə seçici siyahıları sistemində hər bir seçicinin internetdə öz adını tapa bilməsi və 115 saylı qaynar xəttə zəng vurub adının siyahıda olmasını dəqiqləşdirməsi qaydaları barədə məlumatları əks etdirən plakatlar asılmışdır. Seçki keçiriləcək otaqlar yüksək səviyyədə təmir edilmiş, telefonlaşdırılmış, katib və üzvlər, habelə seçkini izləyəcək beynəlxalq və yerli müşahidəçilər üçün yerlər müəyyənləşdirilmişdir. Divardan asılan lövhələrdə seçicilərin yaşadıqları ünvanlar üzrə siyahılar əks olunmuşdur. Hər bir seçici öz adının seçici siyahısında olub-olmadığını dəqiqləşdirə bilər. Seçki günü səsvermədə iştirak edə bilməyən əlil və xəstələr üçün səyyar seçki qutuları hazırlanmışdır.

Əhalinin seçkilərdə fəal iştirakının təmin olunması üçün Mərkəzi Seçki Komissiyası tərəfindən hazırlanmış seçkilərə çağırış plakatları əhalinin ən çox gediş-gəlişli yerlərindən asılmışdır. Namizədlərin təşviqat plakatlarının bərabər səviyyədə yerləşdirilməsi üçün hazırlanmış lövhələr də müvafiq ərazilərdə qoyulmuşdur. Bütün namizədlərə bərabər imkanlar yaradıldığı üçün onlar öz plakatlarını və platformalarını bir yerdə – Mərkəzi Seçki Komissiyası tərəfindən hazırlanmış xüsusi lövhələrdə yerləşdirə bilərlər. Bununla da, namizədlər arasında hər hansı bir ayrıseçkiliyə yol verilməyəcək. Yeri gəlmişkən onu da qeyd edək ki, dairənin əhatə etdiyi məntəqələrin 5-də veb-kamera olacaq.

Seçkidə məntəqə seçki komissiyalarının da üzərinə böyük məsuliyyət düşür. Seçki günü əsas hərəkətlər məhz seçki məntəqələri vasitəsi ilə həyata keçirilir. Ona görə də bir neçə seçki məntəqəsində olduq. 1 saylı Heydərabad seçki məntəqəsi qəsəbə tam orta məktəbinin binasında yerləşir. Məntəqə seçki komissiyasının sədri Nəsimi Rzayev dedi:

– Məntəqədə seçkiyə hazırlıqla bağlı hər gün iş aparılır. Dairə seçki komissiyası ilə əlaqə saxlayır və yeni tövsiyələr alırıq. Məntəqəyə tez-tez dairə seçki komissiyasından nümayəndələr gəlir və oktyabrın 9-da keçiriləcək prezident seçkilərinə hazırlığın nəticələrini yoxlayırlar. Burada seçicilərin ilkin siyahıları asılmış və veb-kamera quraşdırılmışdır. Məntəqədə 1494 nəfərin sərbəst səs verməsi üçün hər cür şərait yaradılır.

Eyni vəziyyəti 2 saylı Sədərək seçki məntəqəsində də müşahidə etdik.

Şərur rayonunda da dairənin iki seçki məntəqəsi ilə maraqlandıq. 29 saylı Cəlilkənd seçki məntəqəsi kənd tam orta məktəbinin binasındadır. Məntəqə seçki komissiyasının sədri Rüxsarə Ağayeva seçki günü 1222 nəfər seçicinin 29 saylı məntəqədə səsvermədə iştirak edəcəyini bildirdi. Lövhədəki siyahıların hələ son nəticə olmadığını, seçici siyahısını bir daha yenidən dəqiqləşdirəcəklərini vurğuladı. Seçki qaydaları ilə tam tanış olduğunu diqqətə çatdıran məntəqə sədri səsvermə gününə qədər kiminsə ünvanında dəyişiklik ola biləcəyini, yaşayış yeri üzrə qeydiyyatdan çıxan və yeni qeydiyyata düşə bilən sakinlərin müraciət edəcəyinin istisna olmadığını bildirərək dedi ki, belə hallara son dərəcə ciddi yanaşılır və kənd icra nümayəndəliyi ilə sıx əlaqə qurulub.

30 saylı Mahmudkənd seçki məntəqəsində də olduq. Məntəqə kəndin mədəniyyət evində yerləşir. Məntəqə seçki komissiyasının sədri Həbib İmanov prezident seçkilərinə hazırlıqla bağlı gördükləri işlər barədə danışdı:

– Məntəqə seçki komissiyasının 6 üzvü var və onlar ardıcıllıqla hər gün səhər saat 9-dan 18-ə kimi növbətçilik qaydasında məntəqəyə gələn hər kəsə seçkilərin keçirilməsi, seçicinin adının siyahıda olub-olmadığı barədə məlumat verirlər. Vətəndaşlara izah edirik ki, seçicilər məntəqəyə gələn zaman hökmən şəxsiyyət vəsiqələrini də özləri ilə götürməlidirlər.

Cəfər ƏLİYEV

***Sentyabrın 13-də Naxçıvan Biznes Mərkəzində Naxçıvan Muxtar Respublikası Təhsil, İqtisadi İnkişaf nazirliklərinin, Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə tədbir keçirilib. Tədbirdə sentyabrın 12-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində elm və təhsil müəssisələrində qarşıda duran vəzifələrlə əlaqədar keçirilmiş müşavirədə verilmiş tapşırıqların icrası ilə bağlı müzakirələr aparılıb.***

# Təhsil müəssisələrində qarşıda duran vəzifələr müzakirə olunub

Naxçıvan Muxtar Respublikasının iqtisadi inkişaf naziri Famil Seyidov bildirib ki, bu gün muxtar respublikamızda ərzaq və qeyri-ərzaq məhsullarının istehsalı ilə məşğul olan xeyli sayda istehsal müəssisələri var. Əhalinin böyük bir hissəsinin yerli məhsullara üstünlük verməsi bu məhsulların keyfiyyətinə diqqətin artırılmasını tələb edir. Buna görə də bu məsələyə ciddi diqqət yetirilməlidir.



Təhsil və məktəbəqədər tərbiyə müəssisələrində şagird və tələbələrin sağlamlığı üçün zərərli olan ərzaq məhsullarına ciddi nəzarət ediləcəyini vurğulayan nazir müəllim, şagird və tələbələr üçün müəyyən olunmuş vahid geyim formalarının keyfiyyətlə tikilməsinin vacibliyini də görüşdə iştirak edən sahibkarların diqqətinə çatdırıb.

Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin sədri Malik Rzayev çıxışında təhsil müəssisələrində fəaliyyət göstərən ictimai-iaşə obyektlərinin standartlarından danışıb, həmin müəssisələrdə istifadə olunan ərzaq məhsulları üçün nəzərdə tutulan dövlət standartlarının tələblərindən bəhs edib. Qeyd edilib ki, təhsil müəssisələrində təhsil və tərbiyə alanların qidalanması üçün dövlət standartına əsasən, istifadə müddəti bitmiş və aşağıkeyfiyyətli qida məhsulu, bir gün əvvəl hazırlanmış qidalar, xarabolma əlaməti olan meyvə-tərəvəz məhsulları, baytarlıq nəzarətindən keçməmiş heyvandarlıq məhsullarının istifadəsi qəti qadağandır.

Bundan əlavə, təhsil müəssisələrində uşaq, yeniyetmə və gənclərin qidalanması zamanı istifadəsinə icazə verilməyən və istifadə edilməsi tövsiyə olunan əsas qida məhsullarının adlı siyahısı slaydlarla iştirakçıların diqqətinə çatdırılıb.

Naxçıvan Muxtar Respublikasının təhsil naziri Piri Nağıyev muxtar respublikanın təhsil müəssisələrindəki mövcud çatışmazlıqlardan danışıb, qeyd edilən problemlərin qısa zamanda aradan qaldırılması üçün adıçəkilən qurumlarla fəaliyyətlərini davam etdirəcəklərini bildirib.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzinin şöbə müdiri Zakir Cəfərovun, İqtisadi İnkişaf Nazirliyinin şöbə müdiri İsa Novruzovun, Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin şöbə müdiri Azad Allahverdiyevin çıxışları olub.

Tədbirə iqtisadi inkişaf naziri Famil Seyidov yekun vurub.

# Qaz təsərrüfatı payız-qış mövsümünə hazırlaşır

***Əhalinin fasiləsiz və təhlükəsiz təbii qazla təmin edilməsi, xətt təsərrüfatında baş verə biləcək hər hansı bir nasazlığın vaxtında aradan qaldırılması üçün "Naxçıvanqaz" İstehsalat Birliyi, onun tabeliyində olan şəhər və rayon Qaz İstismarı idarələri tərəfindən kompleks tədbirlər həyata keçirilir. Birliyin direktoru Səxavət Abbasovun verdiyi məlumata görə, muxtar respublikada, ümumilikdə, 82 min 238 istehlakçı təbii qazdan istifadə edir ki, onlardan 709 abonent, 73 müəssisə cari ilin 8 ayında təbii qazla təmin olunmuşdur.***

Qaz təsərrüfatında istismarda olan magistral, daşıyıcı və paylayıcı qaz kəmərlərinə, eləcə də onlar üzərindəki kranlara, siyirtmələrə və qaztənzimləyici şkaflara müntəzəm olaraq texniki baxış keçirilmiş, aşkar edilmiş nöqsanlar aradan qaldırılmışdır. İstehlakçılara verilən təbii qazın təzyiqinə hər ay texnoloji rejim tətbiq edilmiş və ölçü qovşaqlarında nəzarət işi diqqətdə saxlanılmışdır.

Abonentlərin təhlükəsizliyi də diqqət mərkəzində saxlanılmış, baş verə biləcək hər hansı bir qəzanın vaxtında aradan qaldırılması üçün şəhər və rayon Qaz İstismarı idarələrində qəza dispetçer xidmətlərinin 24 saat fəaliyyəti təmin edilmişdir.

Təbii qazın itkisiz olaraq yerlərə çatdırılması, israfçılığın qarşısının alınması və sərf olunan mavi yanacağın dəyərinin vaxtında ödənilməsi ilə əlaqədar tədbirlər davam etdirilmiş, istismarda olan qaz sayğaclarına mütəmadi olaraq baxışlar keçirilmiş, cari təmirə ehtiyacı olan sayğaclar təmir edilmiş, təmiri mümkün olmayan 1663 ədəd sayğac isə yenisi ilə əvəzlənmişdir.

Payız-qış mövsümünə hazırlıqla bağlı kompleks tədbirlər davam etdirilir. Baş verə biləcək qəzaların qarşısının alınması və nəticələrinin qısa müddətdə aradan qaldırılması üçün qaz təsərrüfatında istifadə olunan material və avadanlıqların ehtiyat fondu yaradılır.

Məlumatda o da bildirilir ki, sərf olunan qazın dəyərinin vaxtında ödənilməsi də diqqət mərkəzində saxlanılmış, 2013-cü ilin 8 ayında enerji istehsal edən müəssisələr nəzərə alınmadan istehlak olunan 99 milyon 833 min 221 kubmetr qazın satışından 9 milyon 989 min 621 manat vəsait əldə edilmiş, ödəmə 100 faiz olmuşdur. Əhali abunəçiləri üzrə istehlak olunan 52 milyon 253 min 475 kubmetr qazın satışından toplanan vəsait 5 milyon 232 min 267 manata çatmışdır ki, bu da 100 faiz ödəmə deməkdir.

Xəbərlər şöbəsi


Biləv Su Elektrik Stansiyası

**Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:**
***Bu gün Azərbaycan enerji təhlükəsizliyi məsələlərində nəinki bölgədə, eyni zamanda qitədə öz rolunu oynayır. Bu rol artır və getdikcə imkanlarımız daha da genişlənəcəkdir. Biz artıq ölkə daxilində enerji təhlükəsizliyi məsələlərini yüz faiz həll etmişik... Naxçıvanın enerji təhlükəsizliyi tam şəkildə təmin edilibdir. Naxçıvanda enerji potensialının həcmi tələbatdan bir neçə dəfə artıqdır. Ancaq su elektrik stansiyalarının öz xüsusiyyətləri vardır. O, təbiətdən qaynaqlanan bir enerjidir, gücdür. Əminəm ki, gələcəkdə bu sahədə əlavə tədbirlərin görülməsi nəticəsində Naxçıvandan qonşu ölkələrə daha da böyük həcmdə elektrik enerjisinin ixracı mümkün olacaqdır.***

***Yaşlı və orta nəslin yaxşı yadındadır ki, ötən əsrin 90-cı illərinin əvvəllərində muxtar respublikanın enerji təsərrüfatı iflic vəziyyətinə düşmüşdü. Bədnam ermənilərin əsassız torpaq iddiaları ucbatından yollarımız bağlanmış, kommunikasiya xətlərimiz kəsilmiş, sözün həqiqi mənasında, dünyadan təcrid olunmuşduq. Bir neçə il davam edən bu vəziyyət naxçıvanlıların ümidlərini qıra bilmədi. Bu qədim diyarın sakinləri yurd yerinin ata-baba əmanəti olduğunu dərindən dərk edərək çətinliklərə sinə gərməyi özlərinə borc bildilər. O illərdə ulu öndər Heydər Əliyevin çıraq işığında imzaladığı müxtəlif sərəncamlar, fərmanlar bu gün Naxçıvana gecəli-gündüzlü işıq sevinci bəxş edib. Dahi rəhbərin uzaqgörən siyasətinin Naxçıvanda uğurla davam etdirilməsi bu sevincə əlavə çalarlar qatmaqdadır. Burada istəristəməz dönüb geriyə baxırsan. O illəri xatırlayırsan. İnsana, onun layiq olduğu səviyyədə yaşamasına qayğının prioritet vəzifəyə çevrildiyi muxtar respublikamızda həyata keçirilənlərin, qurulub-yaradılanların həcminin getdikcə artması bu siyasətin bariz ifadəsidir. Həyatımızın digər sahələri ilə yanaşı, muxtar respublikada enerji təsərrüfatı da özünün yüksək inkişaf mərhələsinə qədəm qoyub.***

# Naxçıvanın enerji təhlükəsizliyi tam təmin edilib

## *Muxtar respublikanın elektrik enerjisinə olan tələbatının 60 faizi su elektrik stansiyaları hesabına ödənilir*

Yenə bir qədər geriyə ekskurs edərək xatırladaq ki, muxtar respublikamız sovet dönəmində Zaqafqaziya vahid energetika sistemindən Araz Su Elektrik Stansiyasına elektrik verilişi xətləri ilə ötürülən enerji vasitəsilə təchiz olunub. Həmin mənbədən 1990-cı ilə qədər istifadə edilib. Məlum hadisələrlə bağlı muxtar respublikaya elektrik enerjisi verilişi dayandırılıb, ümid yalnız Araz Su Elektrik Stansiyasında istehsal edilən 15-20 meqavat gücündə olan elektrik enerjisinə qalıb. 1991-ci ilin dekabrında, ümummilli lider Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində çalışdığı vaxt ulu öndərin şəxsi nüfuzu və böyük səyləri hesabına Türkiyə Respublikasından muxtar respublikaya elektrik enerjisi ötürülməsinə başlanılıb. Daha sonra 1992-ci ilin dekabrında İran İslam Respublikasından çəkilən elektrik xətti, "Babək" yarımstansiyasında quraşdırılmış ümumi gücü 60 meqavat olan dizel-turbin qurğuları, 1993-cü ilin mayında Türkiyədən çəkilmiş 154 kilovoltluq ikidövrəli xətt bu prosesin ilk tədbirləri idi. Beləliklə, 1993-cü ildə Naxçıvanın elektrik enerjisinə olan tələbatı özünün Araz Su Elektrik Stansiyası ilə yanaşı, qonşu Türkiyədən alınan 63 meqavat, İrandan daxil olan 42 meqavat elektrik enerjisi ilə qismən ödənilib.

İqtisadi sabitliyin təmin olunması ilə Naxçıvan Muxtar Respublikasında enerji təhlükəsizliyinin ikinci mərhələsinə start verilməsi də uzaq tarix deyil. Bu mərhələdə artıq öz ehtiyatlarımızın səfərbər olunması ilə daxili tələbatın ödənilməsi və gələcəkdə Naxçıvanın enerji ixracatçısına çevrilməsi kimi böyük işlər həyata keçirilib. İnfrastruktur müasir standartlar səviyyəsində yenilənib, davamlı olaraq yeni güclər yaradılıb ki, bu da, son nəticədə, muxtar respublikada enerji təhlükəsizliyinin səmərəli qurulmasını şərtləndirib. Əgər 1996-cı ilə kimi muxtar respublikada 1 elektrik enerjisi istehsal edən müəssisə mövcud idisə, aparılan məqsədyönlü islahatlar nəticəsində həmin müəssisələrin sayı 6-ya çatdırılıb. Bu, "Azərbaycan Respublikasının yanacaq-enerji kompleksinin inkişafı (2005-2015-ci illər) üzrə Dövlət Proqramı"na və ölkə başçısının "Azərbaycan Respublikasında elektrik enerjisi təminatının yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" 2005-ci il 2 may tarixli Sərəncamına uyğun olaraq, muxtar respublikamızda həyata keçirilən kompleks tədbirlərin nəticəsidir.

Həyata keçirilən layihələrə nəzər salaq: 2006-cı ilin dekabrında ümumi gücü 87 meqavat olan Modul Elektrik, ümumi gücü 50 meqavat olan Qaz- Turbin Elektrik stansiyaları istifadəyə verilib. Heydər Əliyev Su Anbarı üzərində ümumi gücü 4,5 meqavat olan su elektrik və 2010-cu ilin oktyabr ayında Ordubad rayonu ərazisində Gilançay üzərində gücü 22 meqavat, illik elektrik enerjisi istehsalı 80 milyon kilovat-saat olan Biləv Su Elektrik stansiyalarının işə salınması bu istiqamətdə görülən işlərin davamı olub. 2010-cu il oktyabr ayının 5-də Biləv Su Elektrik Stansiyasının açılışında iştirak edən ölkə başçısı cənab İlham Əliyev deyib: ***"Bu gün Azərbaycan enerji təhlükəsizliyi məsələlərində nəinki bölgədə, eyni zamanda qitədə öz rolunu oynayır. Bu rol artır və getdikcə imkanlarımız daha da genişlənəcəkdir. Biz artıq ölkə daxilində enerji təhlükəsizliyi məsələlərini yüz faiz həll etmişik... Bu gün Biləv Su Elektrik Stansiyasının açılışı, sadəcə olaraq, görülən işlərin yeni mərhələsidir. Bu stansiyanın çox böyük əhəmiyyəti vardır. Düzdür, Naxçıvanın enerji təhlükəsizliyi tam şəkildə təmin edilibdir. Naxçıvanda enerji potensialının həcmi tələbatdan bir neçə dəfə artıqdır. Ancaq su elektrik stansiyalarının öz xüsusiyyətləri vardır. O, təbiətdən qaynaqlanan bir enerjidir, gücdür. Əminəm ki, gələcəkdə bu sahədə əlavə tədbirlərin görülməsi nəticəsində Naxçıvandan qonşu ölkələrə daha da böyük həcmdə elektrik enerjisinin ixracı mümkün olacaqdır".***


Arpaçay Su Elektrik Stansiyası

Muxtar respublikamızda təbii resurslardan səmərəli istifadə yeni elektrik stansiyalarının tikintisinə geniş imkanlar açıb. 2011-ci ilin fevral ayında Şərur rayonu ərazisindəki Arpaçay üzərində gücü 20,5 meqavat, illik elektrik enerjisi istehsalı 60 milyon kilovat-saat olacaq Arpaçay və noyabr ayında Ordubad rayonu ərazisində Araz çayı üzərində gücü 36 meqavat, illik elektrik enerjisi istehsalı 190 milyon kilovat-saat olacaq derivasiyatipli Ordubad Su Elektrik stansiyalarının tikintisinə başlanılıb.

Bu il sentyabrın 9-da Arpaçay Su Elektrik Stansiyası istifadəyə verilib. Bununla bağlı Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyi Baş direktorunun müavini Namiq Paşayevlə həmsöhbət olduq. O bildirdi ki, Arpaçay Su Elektrik Stansiyası suqəbuledici qurğu, stansiya binası, tunel və transformator yarımstansiyasından ibarətdir. Suqəbuledici saniyədə 37 kubmetr su buraxmaq gücünə malikdir. Diametri 3,9 metr olan tunelin uzunluğu isə 1100 metrdir. Tuneldən suyu turbinlərə ötürmək üçün 145 metr uzunluğunda yüksəktəzyiqli boru xətti çəkilib, 45 metr dərinliyi olan havaboşaldıcı inşa edilib. Stansiya binasında müasir iş otaqları və idarəetmə mərkəzi yaradılıb. Mərkəzdə su elektrik stansiyasının idarə olunması üçün lazımi avadanlıqlar və kompüter dəstləri, eləcə də nəzarət-mühafizə sistemləri quraşdırılıb. Bu da stansiyanın iş rejimini daim nəzarətdə saxlamağa imkan verir. Mərkəzdə elektrik enerjisinin istehsalı zamanı baş verə biləcək nasazlıqların aradan qaldırılması üçün də lazımi şərait vardır. Stansiya binasında Avstriyanın "Andritz" şirkətinin istehsalı olan 7,75 meqavat gücə malik 2 ədəd və gücü 5 meqavat olan 1 ədəd Françesktipli turbin quraşdırılıb və onlara üfüqi şəkildə bağlanmış müvafiq güclü generatorlar qoşulub. Bütün emal prosesi avtomatlaşdırılmış şəkildə həyata keçirilir.

İstehsal olunmuş elektrik enerjisini şəbəkəyə ötürmək üçün 30 meqavoltamper gücə malik transformator yarımstansiyası qurulub, 11 kilometr uzunluğunda 110 kilovoltluq elektrik verilişi xətləri çəkilib.

Arpaçay Su Elektrik Stansiyası mühüm infrastruktur layihəsi kimi muxtar respublikanın enerji təhlükəsizliyinə öz töhfəsini verəcəkdir. İqtisadi səmərəlilik və enerji potensialının gücləndirilməsi baxımından böyük əhəmiyyətə malik olan stansiyanın istifadəyə verilməsi ilə muxtar respublikanın elektrik enerjisinə olan tələbatının 60 faizi su elektrik stansiyaları hesabına ödəniləcəkdir.

Arpaçay Su Elektrik Stansiyasının tikintisi "Gəmiqaya Yol, Su ‚Enerji" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən yüksək keyfiyyətlə icra edilib. Fransa və Türkiyə şirkətlərinin mütəxəssisləri tərəfindən quraşdırılmış elektrik avadanlıqlarının sınaq-sazlama işlərində Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyinin mühəndis-texniki işçiləri də iştirak ediblər.

Müsahibim onu da bildirdi ki, hazırda Ordubad rayonunun Dəstə kəndi yaxınlığında Araz çayı üzərində inşa olunan daha bir su elektrik stansiyası muxtar respublikada bu sahənin inkişafına ciddi önəm verilməsinin göstəricisidir. Derivasiyatipli nəzərdə tutulmuş stansiyada hər birinin gücü 12 meqavat olan 3 turbin və 3 generator quraşdırılacaq. Yeni enerji istehsalı obyektinin nominal gücdə işləməsi üçün tələb olunan su sərfi saniyədə 126,6 kubmetrdir. Bu stansiyanın aparıcı beton kanalının uzunluğu 12 kilometr olacaq.

Buraya 110 kilovoltluq elektrik verilişi xətti çəkiləcək, transformator yarımstansiyası quraşdırılacaqdır. Hazırda aparıcı kanalda qazıntı və betonlama işləri görülür.

Daha belə bir tədbir Şərur rayonunda həyata keçirilir. Gücü saatda 1400 kilovat olan "Arpaçay-2" Su Elektrik Stansiyasında işlər, demək olar ki, başa çatmaq üzrədir. Stansiyanı turbin və generatorlarla təchiz etmək üçün Avstriyanın "Andritz", Fransanın "Leroy Somer" şirkətlərinə sifariş verilib.

N.Paşayev onu da bildirdi ki, bu gün muxtar respublikada su elektrik stansiyalarının tikintisinə daha böyük önəm verilməsi onunla bağlıdır ki, belə enerji mənbələrində istehsal olunan enerji ucuz başa gəlir. Odur ki, hazırda regionumuzda Araz, Vayxır, Biləv, Arpaçay Su Elektrik stansiyalarının normal işinə ciddi diqqət yetirilir. Bu obyektlərin mühəndis-texniki və operativ heyəti mürəkkəb texniki avadanlıqların istismarını təmin edə bilir. Agentliyin işçilərinin ixtisas səviyyəsinin yüksəldilməsinə, yeni alitəhsilli mühəndis-elektriklərin işə qəbul edilməsinə diqqət artırılır.

Onu da qeyd edək ki, enerji təsərrüfatının müasir tələblər səviyyəsində qurulmasına diqqətin ifadəsidir ki, son illər Naxçıvan Modul Elektrik Stansiyası ilə Naxçıvan Qaz-Turbin Elektrik Stansiyası arasında dəyəri 1 milyon 680 min avro təşkil edən 24 kilometr uzunluqlu 110 kilovoltluq elektrik verilişi xətti çəkilib. Xəttin istismara verilməsi muxtar respublikanın elektrik şəbəkələrinin dayanıqlılığının xeyli yüksəlməsinə imkan yaradıb. Həmçinin muxtar respublikada mövcud olan 110/35/10 kilovoltluq yarımstansiyaların yeniləşdirilməsi diqqətdə saxlanılıb. Cari ildə "Naxçıvan" və "Ordubad" yarımstansiyaları da modernləşdirilərək bu proses başa çatdırılıb. Həyata keçirilən tədbirlər qonşu dövlətlərlə enerji mübadiləsinin yaxşılaşdırılmasında stimul olub. Hazırda İran İslam Respublikası ilə enerji mübadiləsi aparılır, Türkiyə Respublikasına elektrik enerjisi ixrac edilir.


Naxçıvan Modul Elektrik Stansiyası

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Arpaçay Su Elektrik Stansiyasının açılışında dediyi sözlər qədim diyarımızda belə möhtəşəm layihələrin davamlı olacağına inamı daha da artırıb:* ***"Hər bir ölkə üçün elektrik enerjisi strateji sahə hesab edilir. Bu gün dünya ölkələrində ərzaq və enerji təhlükəsizliyi üzrə proqramlar qəbul olunaraq icra edilir. Enerji, ərzaq təhlükəsizliyi təmin olunan ölkələrin iqtisadiyyatı isə sabit və davamlı inkişaf edir. Azərbaycan Respublikasında da ərzaq və enerji təhlükəsizliyinin təmin olunması istiqamətində ardıcıl tədbirlər görülür. Ölkəmizin ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da bu sahələrin inkişafı diqqət mərkəzində saxlanılır. Muxtar respublikada yeni elektrik stansiyaları tikilir, əhalinin və iqtisadiyyatın enerjiyə olan tələbatı etibarlı şəkildə ödənilir. Artıq Naxçıvan elektrik enerjisi idxal edən muxtar respublikadan elektrik enerjisi ixrac edən muxtar respublikaya çevrilmişdir. Enerji təminatının yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlər bundan sonra da davam etdiriləcəkdir".***

**Muxtar MƏMMƏDOV**

*15 sentyabr Bilik Günüdür*

# Təhsil almaq müqəddəs əməl, onu tədris etmək isə ən ali peşədir










***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2004-cü il 21 avqust tarixli Sərəncamına əsasən, ölkəmizin bütün təhsil müəssisələrində tədris ilinin 15 sentyabrdan başlanması qərara alınmış, həmin gün "Bilik Günü" elan edilmişdir. Bundan sonra hər il sentyabrın 15-i ölkəmizdə "Bilik Günü" kimi qeyd olunur.***

Tarix boyu elm öyrənmək, biliklərə yiyələnmək və onu tədris etmək müqəddəs əməl hesab olunmuşdur. Xalqımız daim elmi, təhsili yüksək qiymətləndirmiş, gənc nəslin savadlanması üçün əlindən gələni əsirgəməmişdir. Elə buna görədir ki, xalqımızın ümummilli lideri Heydər Əliyev Azərbaycanın dövlətçilik təməlini qoyarkən onun əsas sütunlarından birinin təhsil olduğunu vurğulamış, ölkəmizin milli təhsil strategiyasını yaratmışdır. Sevindirici haldır ki, bu gün həmin strateji xəttin davamı olaraq, Azərbaycanda milli intellektual potensialın gücləndirilməsi istiqamətində kompleks tədbirlər həyata keçirilir, yeni dövrün tələblərinə uyğun təhsil ocaqları tikilir, onların maddi-texniki bazası möhkəmləndirilir.

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da ulu öndər Heydər Əliyevin ideyalarının uğurla davam etdirilməsi təhsildə yeni və müasir mərhələnin başlanmasına səbəb olmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun diqqət və qayğısı ilə muxtar respublikada 200-dən artıq məktəb binasının tikilərək və ya əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilməsi bu siyasi xəttə sadiqliyin, təhsilə isə əsl dövlət qayğısının bariz nümunəsidir.

Hər il olduğu kimi, bu il də muxtar respublikada aparılan quruculuq işlərinin önündə məktəblərin tikilməsi və ya yenidən qurulması dayanır. 2013-cü ilin əvvəlindən indiyədək Naxçıvan şəhərində 10 nömrəli, Babək rayonunda Şəkərabad, Ordubad rayonunda Çənnəb kənd tam orta məktəbləri və Babək Rayon Şahmat Məktəbi üçün binalar tikilmiş və ya əsaslı şəkildə yenidən qurularaq müəllim və şagirdlərin istifadəsinə verilmişdir. Hazırda isə Naxçıvan şəhər 11 və 16 nömrəli, Şərur rayonunda Xanlıqlar, Sərxanlı, Şahbulaq, Dəmirçi, Babək rayonunda Çeşməbasar, Cəhri kənd 1 nömrəli, Ordubad rayonunda Nürgüt, Bist, Sabirkənd, Ələhi, Nəsirvaz, Xurs, Culfa rayonunda Şurud, Teyvaz, Kırna, Ərəfsə, Şahbuz rayonunda Kükü, Qızıl Qışlaq, Sələsüz, Kəngərli rayonunda Xok, Sədərək rayonunda Sədərək kənd 1 nömrəli tam orta məktəbləri üçün binaların tikintisi və ya yenidən qurulması tədbirləri həyata keçirilir. Bundan əlavə, muxtar respublikada ixtisaslı işçi kadrların hazırlanmasında mühüm rol oynayan peşə təhsili də diqqətdən kənarda qalmamışdır. Hazırda Şərur Peşə Liseyinin tikintisi uğurla davam etdirilir.

Bu gün informasiya-kommunikasiya texnologiyalarının ən son nailiyyətlərinin tədrisdə tətbiqi muxtar respublikada həyata keçirilən təhsil islahatlarının əsasını təşkil edir. Son illər ümumtəhsil məktəblərində, ümumilikdə, 500 ədəd elektron lövhə, hər 15 şagirdə 1 kompüter dəsti düşməklə, 3183 kompüter quraşdırılmışdır. Bu kompüterlərdən 83 faizinin internetə çıxışı təmin edilmişdir. Eyni zamanda ümumtəhsil məktəblərində təhsil alan əlaçı şagirdlərdən 590 nəfərinə kompüterlər hədiyyə olunmuşdur.

Məktəblərdəki tədris prosesində gələcəyimiz olan uşaqların hərbi-vətənpərvərlik ruhunda böyüməsi daim diqqət mərkəzində saxlanılır, "Cəsurlar", "Şahin", "Sərhəd" hərbi-idman və turizm oyunlarının, "Vətənin Müdafiəsinə Hazıram" çoxnövçülüyü üzrə hərbi idman oyunlarının şəbəkəsi hər il daha da genişləndirilir. Eyni zamanda olimpiada hazırlıq mərkəzlərinin fəaliyyəti də aktivləşdirilir, muxtar respublikanın orta ümumtəhsil məktəblərinin şagirdləri fənn olimpiadalarının respublika turunda iştirak edərək uğurlu nəticələr göstərirlər.

Əlbəttə, Azərbaycanın işıqlı gələcəyi üçün vətənpərvər gənclərin yetişdirilməsi bir tərəfdən də müəllimlərin üzərinə düşən vəzifədir. Muxtar respublikamızda müəllimlərə böyük etimad göstərilir, onların əməyi dövlət tərəfindən yüksək qiymətləndirilir. Qeyd edək ki, indiyədək 50 nəfər müəllim "Azərbaycan Respublikasının əməkdar müəllimi", 55 nəfər müəllim "Naxçıvan Muxtar Respublikasının əməkdar müəllimi" fəxri adlarına layiq görülmüş, 48 müəllim isə "Tərəqqi" medalı ilə təltif olunmuşdur. Bununla yanaşı, pedaqoji kollektivlərin fəaliyyətlərinin qiymətləndirilməsi sahəsində həyata keçirilən tədbirlər nəticəsində 2012-2013-cü tədris ilində Naxçıvan şəhər 10 nömrəli, Şərur şəhər 1 nömrəli və Ordubad şəhər 3 nömrəli tam orta məktəbləri "Ən yaxşı ümumtəhsil məktəbi" müsabiqəsində qalib gələrək ölkə başçısının 6 avqust 2013-cü il tarixli Sərəncamı ilə mükafatlandırılmışlar. Son 6 ildə muxtar respublika üzrə bu mükafata layiq görülən məktəblərin sayı 18-ə çatmışdır. Eyni zamanda bu il 5 nəfər müəllim 2012-2013-cü tədris ilinin yekunlarına görə, "Ən yaxşı müəllim" müsabiqəsinin qalibi olmuşdur. Beləliklə, muxtar respublikamızda həmin mükafata layiq görülən müəllimlərin sayı 30-a çatmışdır.

Bu gün muxtar respublikada təhsil müəssisələrinin pedaqoji kadrlarla təminatı diqqət mərkəzində saxlanılır. Artıq təhsil yarmarkalarının təşkili və keçirilməsi sahəsində böyük təcrübə əldə olunmuşdur. Bu il sentyabrın 5-də keçirilən növbəti təhsil yarmarkasında 140 gənc kadra müxtəlif məktəblərdə işləmək üçün göndərişlər verilmişdir. Bu bir tərəfdən ucqar kəndlərdə məktəblərin pedaqoji kadrlara olan tələbatının ödənilməsi baxımından əhəmiyyətlidirsə, digər tərəfdən isə gənc müəllimlərin işlə təminatında mühüm amildir.

Təhsil müəssisələrinə, bu müəssisələrin əsas aparıcı siması olan müəllimlərə göstərilən dövlət qayğısı, təbii ki, təhsilin səviyyəsinin yüksəldilməsində də mühüm rol oynayır. Bu il orta ümumtəhsil məktəblərini bitirən məzunlardan 15 nəfəri qızıl, 9 nəfəri isə gümüş medala layiq görülmüşdür. Ötən tədris ilində muxtar respublikanın ümumtəhsil məktəblərini 4186 məzun bitirmiş, onlardan 3238 nəfəri ali məktəblərə sənəd vermişdir. İmtahanlarda iştirak edən abituriyentlərdən 1676 nəfəri ali məktəblərə qəbul olunmuş, onlardan 312-si 500-700 intervalında bal toplamışdır.

Sevindirici haldır ki, son illər muxtar respublikamızda hərbi təhsil sahəsinə də maraq xeyli artmışdır. Bu sahədə gənclərin yüksək səviyyədə təhsil alması və gələcəkdə ixtisaslı kadr kimi formalaşması üçün hər cür şərait yaradılmışdır. Bunu Heydər Əliyev adına Hərbi Liseyə qəbulun nəticələri də sübut edir. Bu il Hərbi Liseyə 257 nəfər qəbul olunmuşdur. Cari ildə Heydər Əliyev adına Hərbi Liseyi bitirən məzunlar ölkənin müxtəlif ali hərbi məktəblərinə daxil olmuşlar. Bu da onu deməyə əsas verir ki, muxtar respublikamızda digər ixtisaslarla yanaşı, hərb sənətinin öyrənilməsinə də gənclərin böyük marağı vardır.

Naxçıvanda ali təhsil məktəblərinin maddi-texniki bazasının möhkəmləndirilməsi də həyata keçirilən təhsil islahatlarının tərkib hissəsidir. Yeni tədris korpuslarının tikilməsi, müasir informasiya texnologiyalarının tətbiqi, dünya təhsil sisteminə inteqrasiya ali təhsil sahəsində uğurlu nəticələrin qazanılmasına, tələbələrin ixtisaslı kadr kimi yetişməsinə imkan verir. Yaradılan şəraitin nəticəsidir ki, hər il ali məktəblərə qəbul imtahanlarında muxtar respublikada fəaliyyət göstərən ali təhsil müəssisələrini seçən abituriyentlərin sayı artır. Builki qəbul imtahanlarında tələbə adını qazanmış abituriyentlərdən 1079 nəfər Naxçıvandakı ali məktəblərdə təhsil almağa üstünlük vermişdir. Hər il olduğu kimi, bu il də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov yüksək bal toplayaraq tələbə adını qazanmış məzunlarla görüşmüş, onları təbrik edərək mükafatlandırmışdır. Ali Məclisin Sədri tələbə gənclərə öz tövsiyələrini verərək demişdir: ***"Ali təhsil almaqla və peşə öyrənməklə yanaşı, xalqımızın adət-ənənələrinə, milli dəyərlərinə, eləcə də ümumbəşəri dəyərlərə dərindən yiyələnməlisiniz. Bizim təhsilimizin məqsədi həm də yüksək mənəviyyatlı, vətənpərvər və ixtisaslı gənclər yetişdirməkdir. Unutmayın ki, Azərbaycanın gələcəyi sizə etibar olunacaqdır. Ölkəmizin rifahı üçün çalışmalı, müstəqil dövlətimizə, Vətənimizə və xalqımıza layiq mütəxəssislər kimi yetişməli, daim azərbaycanlı olmağınızla fəxr etməlisiniz".***

***Təhsildə əldə olunmuş yüksək nailiyyətlər hər birimizi sevindirməklə yanaşı, həm də intellektual gələcəyə doğru atılan addımdır. Bu addımların səsi müstəqil Azərbaycanın artan inkişafının səsidir. Əziz şagirdlər, tələbələr və kursantlar, səsinizin daim yüksəklərdə eşidilməsi arzusu ilə Bilik Gününüzü təbrik edirik!***

**"Şərq qapısı"**

# Məktəbli yarmarkasında qələbəlikdir

***Çoxlarımız yaxşı xatırlayırıq ki, neçə il əvvəl dərs ilinin başlanmasına bir qədər qalanda övladları məktəblərə gedəcək valideynlər hansı qayğılarla yaşayırdılar. Məktəbli ləvazimatlarının hərəsi, necə deyərlər, bir mağazada satıldığından xeyli vaxt itirilirdi. Lazım olan ləvazimatların da bəziləri tapılırdı, bəziləri də tapılmırdı.***

Bəs indi? Bu gün muxtar respublikada nail olunmuş sosial-iqtisadi inkişaf, təhsilə göstərilən dövlət qayğısı, bu sahədə olan nöqsanların tezliklə aradan qaldırılması üçün həyata keçirilən təsirli və məqsədyönlü tədbirlər bütün valideynlərin, həmçinin müəllim və şagirdlərin həmin problemini aradan qaldırıb. Dərsliklər pulsuz verilir, məktəbli formaları vahid formadadır, istənilən ölçüdə olan forma ucuz qiymətə satılır, məktəbli ləvazimatları da boldur.

Daha bir yaxşı hal ondan ibarətdir ki, hər il Naxçıvan şəhərində məktəbli yarmarkaları təşkil edilir. Buradan istənilən məktəbli ləvazimatını, ən uzağı, bir saat ərzində almaq olar. Cari ildə də Naxçıvan şəhərinin Xətai küçəsindəki Mərkəzi Bazarda təşkil edilən məktəbli yarmarkasında qələbəlik müşahidə olunur. Qeyd edək ki, sentyabr ayının 1-dən başlanan və 16-dək davam edəcək yarmarkada dərs ləvazimatları, məktəbli və idman formaları, məktəbli çantası, lüğət, bədii ədəbiyyatlar və digər ləvazimatlar satılır.



Yarmarkada ayrı-ayrı fənlər üzrə əyani vəsaitlərin satışına da geniş yer ayrılıb. Burada satılan lüğət və digər nəşrlərə, dünya uşaq ədəbiyyatı nümunələrinə, bədii və elmi ədəbiyyata da böyük alıcı marağı vardır. Satış yerlərinin hər birində məhsulların zənginliyi, keyfiyyəti, satış qiymətlərinin əlverişli olması, xidmətin təşkili alıcılar tərəfindən razılıqla qarşılanır.

Naxçıvan Muxtar Respublikası İqtisadi İnkişaf Nazirliyi tərəfindən təşkil edilən, 39 sahibkarlıq subyektinin iştirak etdiyi məktəbli yarmarkasında Naxçıvan şəhərində fəaliyyət göstərən 3 istehsal müəssisəsi – Naxçıvan Alt Trikotaj Məhsulları Fabriki, "Zümrüd" Kiçik Müəssisəsi və Naxçıvan Tikiş Fabriki də öz məhsulları ilə iştirak edir.

Yarmarkada həmsöhbət olduğumuz valideynlərin və müəllimlərin hamısı belə tədbirin təşkilindən razılıqlarını bildirdilər.

**Xəbərlər şöbəsi**

***Dünən Sədərək rayonunda Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu rayon İcra Hakimiyyəti ilə birlikdə maarifləndirici tədbir keçirmişdir.***

# Maarifləndirici tədbir

Sosial sığorta qanunvericiliyi və sosial sığorta sistemində fərdi uçotun tətbiqi məsələlərinə həsr olunan tədbiri Sədərək Rayon İcra Hakimiyyətinin şöbə müdiri Samil Kazımov açaraq ölkəmizdə həyata keçirilən pensiya islahatlarından danışmışdır.

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun şöbə müdirləri Yaşar Məmmədov, İsmayıl Həsənov, baş məsləhətçi Ağa Həsənov çıxış edərək sosial sığorta qanunvericiliyindən, sosial sığorta sistemində fərdi uçotun tətbiqindən, pensiyaların təyinatı və ödənişinin müasir üsullarla həyata keçirilməsindən danışmışlar.

Bildirilmişdir ki, sosial sığorta tərəflər arasında razılaşmanın elə bir növüdür ki, sosial sığorta hadisəsi zamanı sığortaolunana dəymiş ziyan sığortaçı təşkilat tərəfindən qanunvericiliyə uyğun qaydada ödənilir.

Qanunvericiliyə uyğun olaraq, müxtəlif fəaliyyət növləri üçün məcburi dövlət sosial sığorta haqları müəyyənləşdirilmişdir. Sosial sığortaya cəlb olunan şəxslər əgər öz fəaliyyətlərinə uyğun müəyyənləşdirilmiş məcburi dövlət sosial sığorta haqlarının vaxtlı-vaxtında ödənilməsini təmin edərlərsə, onda onlar özlərini baş verə biləcək sosial sığorta hadisələrindən sığortalamış olacaqlar ki, bunlara da pensiya yaşına çatmaq, əlil olmaq, ailə başçısını itirmək, əmək qabiliyyətinin müvəqqəti itirilməsi, hamiləlik, uşağın anadan olması, uşağa qulluq və sair daxildir.

Vurğulanmışdır ki, fərdi uçot sistemi pensiya və digər sosial müdafiə hüquqlarının təmin edilməsi üçün hər bir sığortaolunan barədə məlumatların uçotunun təşkili və aparılmasını nəzərdə tutur. Bu sistemin formalaşdırılmasında əsas məqsəd ödənilən məcburi dövlət sosial sığorta haqları ilə pensiya məbləği arasında birbaşa qarşılıqlı əlaqənin yaradılmasından ibarətdir. Fərdi uçot sisteminin tətbiq olunması sığortaolunanların gələcəkdə alacaqları pensiyaların hansı məbləğdə olacağını qabaqcadan müəyyənləşdirmələrinə imkan verir.

Tədbirdə pensiya təyinatının avtomatlaşdırılması istiqamətində görülən əsas tədbirlərdən də bəhs olunmuş, sığortaolunanların fərdi hesablarında toplanmış sosial sığorta haqlarının məbləği barədə müasir məlumatlandırma sisteminin yaradıldığı vurğulanmışdır. Qeyd olunmuşdur ki, artıq bu iş tam yekunlaşmış və "Sığortaolunanlara məlumatların verilməsi" adlı müasir məlumatlandırma sistemi elektron xidmət vasitəsilə əhalinin istifadəsinə verilmişdir.

Sonra Sədərək rayonunda sığorta pensiya sistemi ilə əlaqədar görülən işlər haqqında Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun Sədərək Rayon Şöbəsinin müdiri Yaqubəli Vəliyev çıxış edərək tədbir iştirakçılarına məlumat vermişdir.

Sonda yeni əmək fəaliyyətinə başlayan bir qrup vətəndaşa onların fərdi uçot sistemində qeydiyyata alındığını və onlar üçün fərdi şəxsi hesab açıldığını təsdiq edən sosial sığorta şəhadətnaməsi verilmişdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***




*Bu gün dünyada ən aktual məsələlərdən biri məşğulluq problemi və bu problemin həll edilməsi yönündə atılan addımlardır. Dünyanın ən inkişaf etmiş ölkələrində belə, işsizlik bu və ya digər dərəcədə mövcuddur. Bir neçə il bundan əvvəl dünya iqtisadiyyatını ağuşuna almış böhran dalğası problemi daha da dərinləşdirmiş, çox az ölkə bu çətinliyi dəf edərək məsələnin həlli ilə bağlı addımlar ata bilmişdir. Ancaq bütün bunlara baxmayaraq, işsizlik hələ də qlobal problem olaraq qalmaqdadır. Şükürlər olsun ki, ölkəmiz nəinki bu çətinliklərdən yan keçə bildi, hətta inkişaf tempini də azaltmadı, işsizliyin həlli ilə bağlı mühüm tədbirlərin həyata keçirilməsi müsbət nəticələrin əldə edilməsi ilə müşayiət edildi.*

# Keyfiyyətli iş yaxşı işçi qazanmaqla mümkündür

Bunu ölkə başçısının aşağıdakı fikirləri də təsdiqləyir. Nazirlər Kabinetinin 2013-cü ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: ***"İşsizlik, demək olar ki, aradan qaldırılır. Bütövlükdə, bu ilin əvvəlində işsizliyin səviyyəsi beş faizdən bir qədər çox idi. Hesab edirəm ki, ilin sonuna qədər bu rəqəm daha da azalacaqdır. Amma o da həqiqətdir ki, 5 faiz səviyyəsində işsizlik istənilən ölkə üçün arzu olunan rəqəmdir. Bəzi inkişaf etmiş ölkələrdə bu rəqəm 10 faiz, 15 faiz, 25 faiz səviyyəsinə qalxır".***

Qeyd edilən rəqəmlər ölkəmizdə, həmçinin muxtar respublikamızda işsizliyin həll edilməsi istiqamətində mühüm tədbirlərin həyata keçirildiyindən xəbər verir. Təbii ki, bu proses indi də davam edir. Əvvəlki yazılarımızdan birində işaxtaran vətəndaşlardan bəhs etmiş, belə bir nəticəyə gəlmişdik ki, müasir dövrdə bilik və bacarığın mövcudluğu və bunların vəhdəti istənilən işaxtaran üçün əsas meyar olmalıdır. Əgər buna nail ola bilməmişiksə, o zaman iş tapa bilməməyimizə görə kimsəni də günahlandırmamalıyıq. Məsələnin digər tərəfi işəgötürənlərlə bağlıdır. Daha doğrusu, məşğulluq probleminin həllində işəgötürənlərin də rolu az deyil.

Qeyd etdik ki, işsizlik məsələsinin həlli işəgötürənlərdən də asılıdır. Hər kəs istəyər ki, yaxşı işçi çalışdırsın. Uzağa getməyək, bu gün muxtar respublikamızda elə bir səlahiyyətli şəxs və ya sahibkar yoxdur ki, bilikli və bacarıqlı işçiyə ehtiyacı olmasın. Ancaq yaxşı işçi əldə etməyin də müəyyən tərəfləri var: düzgün seçim edə biləsən və bu işçilər təmsil olunduqları sahədə faydalı nəticələr əldə edə bilsinlər. Fikirlərimizin hörmətli oxucular tərəfindən tövsiyə və ya məsləhət kimi anlaşılmamasına əmin olub, bu sahədə həm ölkəmizdə, həm də dünya praktikasında araşdırıb əldə etdiyimiz məlumatları sizinlə bölüşmək istərdik. Yeri gəlmişkən qeyd edək ki, bu sahədə aparılan araşdırmalar dünya praktikasından da məlum olduğu kimi, əsasən, sahibkarlıq subyekti üzərində qurulmuşdur. Çünki sahibkar öz qərarlarında daha müstəqil olur və işin keyfiyyətli nəticəsi ondan birbaşa asılı olmaqla yanaşı, həm də maraq dairəsini əhatə edir.

Birinci ondan başlayaq ki, müasir dövrün əsas sahələrindən biri olan biznes insanların əməli fəaliyyəti üzərində qurulur. Dünyanın məşhur şirkətlərinə rəhbərlik edən sahibkarların gücü ondadır ki, onlar ətrafına bacarıqlı işçilərdən ibarət güclü komanda toplaya biliblər. Bununla belə, onların əsl problemi yenə də ixtisaslı kadr qıtlığı olur. İxtisaslı kadr dedikdə nə başa düşülür? Əlbəttə ki, hər hansı bir ali təhsilə yiyələnmək ixtisaslı kadr demək deyildir. İxtisaslı kadr, şəxsin seçdiyi sahə üzrə mükəmməl təhsil alıb biliklərə yiyələnməsi və təcrübə olmasa da, həmin bilikləri müəyyən qədər tətbiqetmə bacarığına əsaslanır. Yəni diploma əsaslanıb işə götürmək həmişə özünü doğrultmur və bu, bütün dünyada belədir. Öz sahəmizdən misal çəkim. Bu gün muxtar respublikanın mətbuat nümayəndələri sırasında ixtisasca jurnalist olanlar digər ixtisas sahibləri ilə müqayisədə çox azdır.

İnkişaf etmiş ölkələrin aparıcı şirkətlərində ixtisaslı kadrların işə qəbulu bəzən aylarla çəkir. Çünki sahibkar yeni işçini biznesin gələcəyi kimi görür. Əgər işçidən ayrılmaq qərarına gəlirsə, bu prosesi uzatmır. Ona görə ki, olmayan gələcəyə (gedən işçiyə) havayı sərmayə xərcləmək istəmir.

Bəzən işəgötürənlər yeni işçini qəbul edərkən onun əvvəlcə daha tanınmış yerdə işləməsini və ya iş təcrübəsini əsas götürürlər. Bu da yanlışdır. Çünki namizədin harda işləməsi yox, necə işləməsi daha önəmlidir. Digər tərəfdən, bir işçinin konkret şirkətdə eyni işdə (rəhbər vəzifə xaric) 3 ildən artıq işləməsi qətiyyən müsbət göstərici hesab edilmir. Ancaq təəssüflər olsun ki, bu hal bizdə hələ də "böyük təcrübə" kimi qəbul edilir.

Və nəhayət, özəl sektorda çalışıb "mənim üçün pul vacib deyil", – deyən işçidən uzaqlaşmaq ən yaxşısıdır. Çünki pul qazanmaq istəyən işçi sahibkar üçün əla imkanlar yaradır. İşçi pul qazanmağa səy göstərdikcə sahibkar, çalışdığı müəssisə də qazanır. Və ya işçi yaxşı qazanırsa, deməli, işlər də yaxşı gedir.

Bütün bu qeyd etdiklərimizdən belə bir nəticə hasil olur ki, müasir dövrdə bazar iqtisadiyyatı istənilən təbəqədən olan insanlar üçün geniş imkanlar açır. O ki qaldı işəgötürənlərə, əgər yaxşı işçi axtarırsınızsa, çalışın onu özünüz kəşf edin!

**Səbuhi HƏSƏNOV**

# Təlim kursu uğurla başa çatıb

**Naxçıvan Dövlət Universitetində Azərbaycan Hökuməti və Beynəlxalq İnkişaf Assosiasiyasının birgə həyata keçirdiyi "Dövlət investisiyaları üzrə kadr potensialının gücləndirilməsi" layihəsi çərçivəsində keçirilən növbəti təlim kursu dünən başa çatıb.**

Layihənin idarə olunmasına həsr edilmiş təlim kursunun yekununda Naxçıvan Dövlət Universitetinin rektoru, biologiya elmləri doktoru, professor Saleh Məhərrəmov çıxış edərək Azərbaycanda gənc kadrlara göstərilən yüksək etimaddan, mütəxəssis hazırlığına hərtərəfli dövlət qayğısından bəhs edib. Rektor qeyd edib ki, universitetdə keçirilən təlim kursları regionda yüksəkixtisaslı kadr potensialının formalaşması, bilik və təcrübə mübadiləsi baxımından xüsusi əhəmiyyət kəsb edir.

Layihənin idarə olunması üzrə təlim kursunun təşkilatçısı olan GRBS Şirkətlər Qrupunun Baş direktoru Bəhram Qurbanov çıxış edərək qeyd edib ki, rəhbərlik etdiyi təşkilat akkreditasiyalarının sayına görə öz sahəsi üzrə dünyada ilk beşlikdə dayanır, postsovet məkanında isə ilk yeri tutur.

Qeyd edək ki, təlim iştirakçıları təlim zamanı layihənin uğurla idarə olunması üzrə beynəlxalq səviyyədə qəbul edilmiş yanaşma və prosedurlarla bağlı zəngin nəzəri və təcrübi bilik əldə edərək gələcəkdə Azərbaycanın sosial-iqtisadi tərəqqisi naminə uğurla fəaliyyət göstərəcəklər.

Sonda təlim iştirakçılarına sertifikatlar təqdim olunub.

**Mehriban SULTAN**

# "Araz-Naxçıvan" birinci divizionda ilk matçına sabah çıxacaq

Birinci divizionun ilk turunda Tovuzda "Turan-T"-nin qonağı olacaq "Araz-Naxçıvan" bu gün yola düşür. Komandamız əvvəlcə Gəncəyə, oradan isə məskunlaşmaq üçün Qazağa yollanacaq. Burada Qazax Olimpiya İdman Kompleksində qalacaq qırmızı-ağların bu gün matçın oynanılacağı Tovuz şəhər stadionunda məşqə də çıxacağı gözlənilir. Əsgər Abdullayevin yetirmələri yüngül məşqdən sonra yenidən Qazağa yollanacaq və oyunun başlama saatını gözləyəcək.

Qeyd edək ki, oyun sabah Tovuz şəhər stadionunda keçiriləcək və matçın başlama saatı $17^{00}$-dir.

Artıq oyunu idarə edəcək hakimlər briqadası da məlumdur. "Araz-Naxçıvan"ın ilk turdakı oyununda Anar Salmanov fit çalacaq. Uzun illər premyer-liqada hakimlik edən A.Salmanova bu görüşdə Yaşar Abbasov və Aleksandr Musatkin köməklik edəcəklər. Nail Nağıyev isə matçın dördüncü hakimi vəzifəsini yerinə yetirəcək.

**Ceyhun MƏMMƏDOV**

# Tender elanı

İkinci Kənd İnvestisiya Layihəsinin Naxçıvan Regional Əməliyyatlar Ofisinin əhatə etdiyi Ordubad rayonunun Sabirkənd icmasının tender komissiyası icma qrupunun hazırladığı "İçməli su təminatı" adlı layihənin icrası məqsədilə keçirilən tenderdə iştirak etmək iddiasında olan bütün hüquqi və fiziki şəxsləri əməkdaşlığa dəvət edir.

Tender komissiyasına aşağıdakı sənədlər təqdim olunmalıdır:

* *Maraq məktubu*
* *Nizamnamə*
* *Maddi-texniki və insani resurslar barədə məlumat*
* *Son üç ildə icra etdikləri işlər haqqında məlumat*
* *Maliyyə vəziyyəti barədə arayış.*

Qeyd olunmuş sənədlər toplusunu 21 sentyabr 2013-cü il, saat $18^{00}$-ə kimi tender komissiyasına təqdim etmək lazımdır.

***Ordubad rayonu, Sabirkənd tender komissiyası***
***icma qrupunun sədri: Malik Əhmədov***
***Əlaqə telefonu: (050)-674-90-59***

***İtmişdir***

Babək rayonunun Kültəpə kəndində yaşamış Novruzov Əhməd Abdulla oğlunun adına olan evin JN-230A inventar nömrəli, 10308028 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***Allah rəhmət eləsin***

Naxçıvan Özəl Universitetinin rektorluğu və professor-müəllim heyəti universitetin əməkdaşı Şahı Babayevə, bibisi
**ÜMÜS XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının baş həkimi Rəhim Rəhimov və xəstəxananın kollektivi iş yoldaşları Bəhriyyə Fərzəliyevaya, yaxın qohumu
**HƏSƏNİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Biznes Mərkəzinin kollektivi iş yoldaşları Vaqif Hüseynbəyliyə, atası
**MÜZƏFFƏRİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Muxtar Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və "Əcəmi" NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 3940. Sifariş № 836